# AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİN SƏRƏNCAMI

Azərbaycan Respublikasında qaçqınların və məcburi köçkünlərin vəziyyətinə həsr olunmuş «İnkişaf problemləri və strateji istiqamətlər» mövzusunda 2000-ci il mayın 18-də Bakıda keçirilmiş beynəlxalq konfransda Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin çıxışında və digər çıxışlarında irəli sürülmüş təklif və tapşırıqların həyata keçirilməsi məqsədi ilə:

1. Azərbaycan Respublikasında qaçqınların və məcburi köçkünlərin vəziyyətinə həsr olunmuş «İnkişaf problemləri və strateji istiqamətlər» mövzusunda 2000-ci il mayın 18-də Bakıda keçirilmiş beynəlxalq konfransda Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin çıxışında və digər çıxışlarında irəli sürülmüş təklif və tapşırıqların icrası üzrə Fəaliyyət Proqramı təsdiq edilsin. (Əlavə olunur.)

2. Nazirliklər, komitələr, dövlət müəssisə və təşkilatları Fəaliyyət Proqramının icrası üçün müvafiq iş aparsınlar və bu Proqramın icrası vəziyyəti ilə əlaqədar Nazirlər Kabinetinə müntəzəm məlumat versinlər.

3. Sərəncamın icrasının nəzarət Nazirlər Kabineti İşlər İdarəsinin qaçqınların və məcburi köçkünlərin problemləri, miqrasiya və beynəlxalq humanitar təşkilatlarla iş şöbəsinə tapşırılsın.

**Azərbaycan Respublikası Baş naziri A. RASİZADƏ**

Bakı şəhəri, 30 iyun 2000-ci il
128s

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2000-ci il 30 iyun tarixli, 128s nömrəli sərəncamı ilə

**TƏSDİQ EDİLMİŞDİR**

**Azərbaycan Respublikasında qaçqınların və məcburi köçkünlərin vəziyyətinə həsr olunmuş "İnkişaf problemləri və strateji istiqamətlər" mövzusunda 2000-ci il mayın 18-də Bakıda keçirilmiş beynəlxalq konfransda Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin çıxışında və digər çıxışlarda irəli sürülmüş təklif və tapşırıqların icrası üzrə**

## FƏALİYYƏT PROQRAMI

| № | Tədbirin adı | İcra orqanları | İcra müddəti |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| | **I. Təbliğat tədbirləri** | | |
| 1. | Beynəlxalq konfransın sənədlərinin kitab şəklində Azərbaycan, ingilis, rus və ərəb dillərində çapını təşkil etmək<br>Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin beynəlxalq konfransdakı çıxışını Azərbaycan, ingilis, rus və ərəb dillərində kütləvi tirajla çap etdirib, beynəlxalq aləmdə yayılmasına nail olmaq.<br>Cənab Heydər Əliyevin qaçqınlarla və məcburi köçkünlərlə görüşlərdə çıxışlarından, qaçqınlar və məcburi köçkünlərlə əlaqədar qəbul edilmiş qanun, fərman, qərar və sərəncamlar toplusundan, habelə müvafiq fotoşəkillərdən ibarət kitab hazırlayıb nəşr etdirmək | Nazirlər Kabineti, Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyası, Xarici İşlər Nazirliyi, Maliyyə Nazirliyi, Təhsil Nazirliyi, Mətbuat və İnformasiya Nazirliyi, Dövlətqaçqınkom, Elmlər Akademiyası | 2000-ci il |
| 2. | Azərbaycanda fəaliyyət göstərən beynəlxalq maliyyə və humanitar təşkilatların, donorların bütün istiqamətlər üzrə fəaliyyətini əks etdirən kitabça hazırlamaq (Azərbaycan, ingilis, rus və ərəb dillərində).<br>1992-2000-ci illərdə Azərbaycana göstərilən beynəlxalq humanitar yardımın istiqamətləri üzrə qrafik təsvirin, bölgülər üzrə xəritəsini, habelə adambaşına ərzağa və qeyri-ərzağa olan tələb və ehtiyacların minimum həddinə dair analitik material hazırlamaq, Azərbaycan, ingilis, rus | Nazirlər Kabineti, Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyası, Xarici İşlər Nazirliyi, Maliyyə Nazirliyi, Təhsil Nazirliyi, Mətbuat və İnformasiya Nazirliyi, Dövlətqaçqınkom, Elmlər Akademiyası | 2000-ci il |

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| | və ərəb dillərində çoxaldıb beynəlxalq təşkilatlar arasında yayılmasını təşkil etmək<br>Məcburi köçkünlərin vəziyyətinin ümumi mənzərəsinə dair statistik albomun Azərbaycan, ingilis, rus və ərəb dillərində çap edilib yayılmasını təşkil etmək | | |
| 3. | Məcburi köçkünlərin problemlərinə, yaşayış tərzinə həsr edilmiş telekino oçerklərin, videokasetlərin çəkilib yayılmasını təşkil etmək | Nazirlər Kabineti, Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyası, Dövlətqaçqınkom, Dövlət Televiziya və Radio Verilişləri Şirkəti, "Azərkinovideo" İB | Müntəzəm |
| 4. | Rəsmi mətbuat orqanlarında qaçqınların və məcburi köçkünlərin problemlərinə həsr edilmiş materialların, erməni lobbisinin apardığı ideoloji təxribata qarşı elmi-publisistik yazıların verilməsini təşkil etmək | "AzərTAc", Mətbuat və İnformasiya Nazirliyi, Dövlətqaçqınkom | Müntəzəm |
| 5. | Dövlətqaçqınkomun orqanı "Vətən səsi" qəzeti redaksiyasının ştat vahidlərinin artırılması, qəzetin tirajının çoxaldılması, maddi-texniki bazasının möhkəmləndirilməsi üçün təkliflər hazırlamaq, "Vətən səsi"nin əlavəsi kimi ingilis və ərəb dillərində rüblük bülletenlər buraxılmasını təşkil etmək | Maliyyə Nazirliyi, Dövlətqaçqınkom | 2000-ci il |
| 6. | Konfrans materiallarının geniş təbliği, Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin çıxışlarından irəli gələn vəzifələrin icrası ilə əlaqədar respublika televiziyası və radiosunda verilişlər təşkil etmək | Nazirlər Kabineti, Dövlətqaçqınkom, Dövlət Televiziya və Radio Verilişləri Şirkəti | Müntəzəm |
| 7. | Konfrans materialların öyrənilməsi və təbliği məqsədi ilə elm, sənət adamlarının, rəhbər işçilərin məcburi köçkünlərin sıx yaşadıqları yerlərə gedişini təşkil etmək | Dövlətqaçqınkom, Təhsil Nazirliyi, Mədəniyyət Nazirliyi, Elmlər Akademiyası | Müntəzəm |
| 8. | Ölkəyə gələn diplomatik missiya nümayəndələrinin, səlahiyyətli əcnəbilərin, beynəlxalq qurumlarda çalışanların və bu qəbildən olan digər şəxslərin çadır düşərgələrinə və fin tipli qəsəbələrə səfərini təşkil etmək | Nazirlər Kabineti, Xarici İşlər Nazirliyi, Dövlətqaçqınkom | Müntəzəm |

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| 9. | Respublikanın zonaları üzrə beynəlxalq konfransın yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş seminar-müşavirələr keçirmək (xüsusi plan üzrə) | Dövlətqaçqınkom, şəhər və rayon icra hakimiyyəti orqanları | 2000-ci il |
| **II. Təşkilat-sosial müdafiə məsələləri üzrə tədbirlər** | | | |
| 1. | Müvafiq dövlət orqanlarının, beynəlxalq, maliyyə və humanitar təşkilatların iştirakı ilə "Qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli üzrə" Dövlət Proqramının icra vəziyyətini müzakirə etmək | Nazirlər Kabineti, müvafiq nazirliklər, komitələr, şirkətlər, konsernlər, səhmdar cəmiyyətləri, baş idarələr | 2000-ci il |
| 2. | "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" və "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası qanunlarının, həmin qanunların icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin müvafiq fərmanlarının, habelə Nazirlər Kabinetinin qərar və sərəncamlarının həyata keçirilməsini təmin etmək | Nazirlər Kabineti, Maliyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Dövlətqaçqınkom | Müntəzəm |
| 3. | Bütün şəhər və rayonların ərazilərində məcburi köçkünlər üçün müvəqqəti ayrılmış torpaq sahələrinin uçotunu dəqiqləşdirmək, bu məqsədlə əkinəyararlı torpaq sahələrinin ayrılmasına üstünlük vermək | Dövlət Torpaq Komitəsi, Dövlətqaçqınkom, yerli icra hakimiyyəti orqanları | Müntəzəm |
| 4. | Müvəqqəti ayrılmış torpaq sahələrinin becərilməsi üçün toxum, gübrə, yanacaq, kənd təsərrüfatı texnikası üzrə yardım göstərilməsi məsələlərini kompleks həll etmək | Kənd Təsərrüfatı Nazirliyi, Dövlət Neft Şirkəti, Dövlətqaçqınkom, Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu | Müntəzəm |
| 5. | Çadır düşərgələrində və fin tipli qəsəbələrdə məskunlaşmış ailələr üçün torpaq sahəsi ayrılması məqsədi ilə yerlərdə baxış keçirmək, əkinəyararlı torpaqlardan istifadə olunmasını təşkil etmək | Dövlət Torpaq Komitəsi, Dövlətqaçqınkom, yerli icra hakimiyyəti orqanları | 2000-ci il |
| 6. | Heyvandarlıqla məşğul olan ailələr üçün qış yataqları, yaylaq yerləri, örüş-otlaq sahələri ayrılmasını təşkil etmək | Kənd Təsərrüfatı Nazirliyi, Dövlət Torpaq Komitəsi, Dövlətqaçqınkom, yerli icra hakimiyyəti orqanları | Müntəzəm |

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| 7. | Beynəlxalq maliyyə və humanitar təşkilatların fəaliyyət proqramlarında iş yerləri açmaq, gəlir gətirən sahələr yaratmaq, güzəştli kreditlər verməklə sahibkarlığa yiyələnmək kimi vərdişlərin inkişafına üstünlük verilməsi məqsədi ilə bölgələr üzrə konkret tədbirlər planı hazırlamaq, onların bu sahədəki fəaliyyətini tənzimləmək, qeyri-bank kredit təşkilatlarının yaradılmasını təmin etmək | Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyası, Ədliyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Maliyyə Nazirliyi, Milli Bank, Dövlətqaçqınkom, Dövlət Antiinhisar və Sahibkarlığa Kömək Komitəsi | Müntəzəm |
| 8. | Qaçqınlar və məcburi köçkünlər üçün onların məskunlaşdıqları şəhər və rayonların imkanları, təsərrüfat istiqamətləri, habelə işə cəlb olunacaq adamların qabiliyyət və əmək vərdişlərini nəzərə almaqla, yeni iş yerləri yaratmaq məqsədi ilə perspektiv fəaliyyət proqramı hazırlamaq, "Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanına əsasən qaçqın və məcburi köçkün qadınların işə cəlb edilməsinə dair tədbirlər planı tərtib etmək | Dövlətqaçqınkom, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Qadın Problemləri üzrə Dövlət Komitəsi | 2000-ci il |
| 9. | Yeni iş yerləri yaradılarkən, qaçqınları və məcburi köçkünləri birinci növbədə nəzərdə tutmaq, idarə və müəssisələrdə struktur dəyişikliyi edilərkən, ixtisar aparılarkən bu qəbildən olan şəxslərin işdə saxlanılmasına üstünlük vermək | Nazirliklər, komitələr, şirkətlər, konsernlər, səhmdar cəmiyyətləri, baş idarələr | Müntəzəm |
| 10. | İşğaldan azad olunacaq ərazilərdə sənaye və kənd təsərrüfatı sahələri üzrə iş yerləri yaradılmasına dair proqnozların, təxmini strukturların işlənib hazırlanmasını təşkil etmək | İqtisadiyyat Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Maliyyə Nazirliyi, Dövlətqaçqınkom | 2000-ci il |
| 11. | İşğal olunmuş ərazilərə dəymiş ziyanın müəyyənləşdirilməsi, torpaqların minalardan təmizlənməsi, bərpa, qayıdış kimi problemlərin həlli məqsədi ilə müvafiq komissiya yaratmaq üçün təklif vermək | Nazirlər Kabineti, Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, Dövlətqaçqınkom, Azərbaycan Respublikasının Hərbi Əməliyyatlar Nəticəsində İşğal Olunmuş və Bununla Əlaqədar Zərər Çəkmiş Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Dövlət Komissiyası | Sülh müqaviləsi imzalandıqdan sonra |

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| 12. | Qayıdış və bərpa üzrə hazırlanmış proqramda nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsini təmin etmək məqsədi ilə dünya dövlətlərini, donor ölkələri, beynəlxalq maliyyə qurumlarını, beynəlxalq humanitar təşkilatları, xarici və yerli xeyriyyəçiləri, iş adamlarını bu sahəyə cəlb etmək.<br>İşğalından azad olunacaq ərazilərə dəymiş ziyanın hesablanması üçün beynəlxalq təşkilatlarla qarşılıqlı razılıq əsasında müvafiq tədbirlər görmək | Nazirlər Kabineti, Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyası, Xarici İşlər Nazirliyi, Dövlətqaçqınkom, Azərbaycan Respublikasının Hərbi Əməliyyatlar Nəticəsində İşğal Olunmuş və Bununla Əlaqədar Zərər Çəkmiş Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Dövlət Komissiyası | Sülh müqaviləsi imzalandıqdan sonra |
| 13. | Məcburi köçkünlərin sosial-iqtisadi vəziyyətini yaxşılaşdırmaq məqsədi ilə Sosial İnkişaf Fondunun səmərəli fəaliyyətini təmin etmək üçün beynəlxalq maliyyə qurumlarının və humanitar təşkilatların bu istiqamətdə fəaliyyətinin əlaqələndirilməsinə nail olmaq | Dövlətqaçqınkom, Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu | Müntəzəm |
| 14. | Qaçqınların və məcburi köçkünlərin məşğulluğunu və sosial müdafiəsini təmin etmək məqsədi ilə güzəştli kreditlərin verilməsi qaydalarının işlənib hazırlanması və təsdiq olunmasını sürətləndirmək, bu əsasda onlara güzəştli kredit vermək mexanizmlərinin yaradılmasını təmin etmək | Nazirlər Kabineti, Milli Bank, Maliyyə Nazirliyi, Dövlətqaçqınkom, yerli icra hakimiyyəti orqanları | 2000-ci il |
| 15. | 2000-ci il dövlət büdcəsi dürüstləşdirilərkən, qaçqınların və məcburi köçkünlərin problemləri üzrə həlli vacib olan tədbirlərin maliyyələşdirilməsini nəzərə almaq, 2001-ci ildə və növbəti illərin büdcə proqnozlarında isə bu qəbildən olan əhalinin sosial qayğılarının həlli məqsədi ilə ayrılacaq maliyyə vəsaitinin artırılması üçün təklif vermək | Dövlətqaçqınkom, Maliyyə Nazirliyi | 2000-2001-ci illər |
| 16. | Qaçqınların və məcburi köçkünlərin səhiyyə və təhsil problemlərini həll etmək məqsədi ilə müvafiq humanitar təşkilatların iştirakı ilə fəaliyyət proqramları hazırlamaq, bu məsələləri kollegiya iclaslarında vaxtaşırı müzakirə etmək, yerlərdə baxışlar keçirmək, seminarlar, müşa- | Səhiyyə Nazirliyi, Təhsil Nazirliyi, Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyası | Müntəzəm |

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| | virələr təşkil etmək, mütəxəssislərdən ibarət briqadalar vasitəsi ilə profilaktik tədbirlər görmək | | |
| 17. | Azərbaycanda fəaliyyət göstərən xarici şirkətlərin, maliyyə qurumlarının qaçqınların və məcburi köçkünlərin problemlərinin həllində iştirakını təmin etmək məqsədi ilə tədbirlər görmək | Nazirlər Kabineti, Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyası, Xarici İşlər Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Səhiyyə Nazirliyi, Mədəniyyət Nazirliyi, Dövlətqaçqınkom, Maliyyə Nazirliyi, Dövlət Neft Şirkəti, Dövlət Televiziya və Radio Verilişləri Şirkəti, AzərTac, Elmlər Akademiyası, Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu | Müntəzəm |
| 18. | Respublika nazirlikləri, dövlət komitələri, şirkətləri, konsernləri və digər mərkəzi təşkilatlar tərəfindən Nazirlər Kabinetinin müvafiq göstərişinə uyğun olaraq, şəhər və rayonlar üzrə məcburi köçkünlərə yardım göstərilməsinin davam etdirilməsinə nail olmaq, imkanlı təşkilatları, tanınmış iş adamlarını yardım göstərmək işinə cəlb etmək | Nazirlər Kabineti, Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu, müvafiq dövlət orqanları | Müntəzəm |
| 19. | Füzuli rayonunun işğalından azad olunmuş ərazilərində və Ağdam rayonunun kəndlərində, habelə işğal olunmuş rayonlar üçün respublikanın müxtəlif ərazilərində dövlət fondu hesabına ayrılmış və hazırda həmin rayonların sərəncamında olan qış yataqlarında, işğal olunmuş ərazilərə yaxın yerlərdə və məcburi köçkünlərin əvvəllər yaşadıqları iqlimə uyğun gələn yerlərdə qəsəbələr salmaq, iş yerləri yaratmaq | Nazirlər Kabineti, Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyası, Maliyyə Nazirliyi, Dövlət Torpaq Komitəsi, Dövlətqaçqınkom, Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu, müvafiq icra hakimiyyəti orqanı | 2000-ci ildən başlayaraq |
| 20. | Azərbaycanda fəaliyyət göstərən beynəlxalq humanitar təşkilatların dövlət orqanları ilə fəaliyyətlərinin əlaqələndirilməsi istiqamətində Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyasının işini təkmilləşdirmək, humanitar yardımların bilavasitə yardımpaylayan təşkilatlar | Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyası, Dövlətqaçqınkom, Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu | |

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| | vasitəsi ilə, ayrı-ayrı hallarda hökumət orqanları ilə birlikdə paylanmasını mövcud qaydalara uyğun davam etdirmək, yardımların bölüşdürülüb paylanmasında ədalət prinsipinə, fikir mübadiləsinə, təklif və iradlara əhəmiyyət vermək, şəffaflığı və operativliyi təmin etmək | | |
| 21. | Beynəlxalq təşkilatlar vasitəsi ilə yaradılmış infrastrukturdan və xidmət sahələrindən səmərəli istifadə olunması üçün tədbirlər görmək | Dövlətqaçqınkom, Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu, yerli icra hakimiyyəti orqanları | Müntəzəm |
| 22. | Respublikadakı beynəlxalq humanitar təşkilatların normal fəaliyyəti üçün ölkədəki qanunlar çərçivəsində sərbəst, maneəsiz şərait yaradılması, bu sahədə qarşılıqlı anlaşma əsasında mövcud qanunvericiliyə riayət edilməsi, bir sözlə, həmin təşkilatlarda aparılan işlərin tam demokratik əsaslarla təşkil edilməsi istiqamətində görülən tədbirləri təkmilləşdirmək | Nazirlər Kabineti, Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyası, Ədliyyə Nazirliyi, Maliyyə Nazirliyi, Vergilər Nazirliyi, Dövlətqaçqınkom, Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu, Milli Bank, Beynəlxalq Bank | Müntəzəm |
| 23. | Beynəlxalq humanitar təşkilatların nümayəndələrinə vizaların açılmasında, humanitar yüklərin rəsmiləşdirilməsində operativliyi təmin etmək, həmin təşkilatların vergi orqanlarında uçota götürülmə məsələlərinin, orada çalışan Azərbaycan Respublikası vətəndaşlarının vergiyə və məcburi dövlət sosial sığortasına cəlbolunma problemlərinin mövcud qanunvericiliyə uyğun tənzimlənməsinə nail olmaq | Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyası, Xarici İşlər Nazirliyi, Vergilər Nazirliyi, Dövlət Gömrük Komitəsi | Müntəzəm |
| 24. | Beynəlxalq humanitar təşkilatların fəaliyyətinə hüquq mühafizə, vergi orqanlarının və digər təşkilatların əsassız müdaxiləsinə yol verməmək, həmin təşkilatlarda işləyən şəxslərə münasibətdə qeyri-qanuni hərəkətlərin qarşısını almaq, beynəlxalq təşkilatlara məxsus nəqliyyat vasitələrinin, habelə humanitar yüklərin əsası olmadan saxlanılması və yoxlanılması hallarını aradan götürmək məqsədi ilə operativ tədbirlər görmək | Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyası, Daxili İşlər Nazirliyi, Respublika Prokurorluğu, Vergilər Nazirliyi, Dövlət Gömrük Komitəsi | Müntəzəm |

Azərbaycan Respublikasının Qanunvericilik toplusu.-2000.- 30 iyun, № 6.- S. 2615-2622.